# UNEC Azərbaycan Dövlət İqtisad Universitetinin brendidir

Martın 15-də Azərbaycan Dövlət İqtisad Universitetində UNEC brendi ictimaiyyət nümayəndələrinə təqdim edilib.




Təqdimatda çıxış edən rektor, professor Ədalət Muradov bildirib ki, Prezident İlham Əliyev 18 yanvar 2016-cı ildə "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı sərəncamda "Made in Azerbaijan" brendinin dünya bazarında tanınması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə dair tapşırıq verib. Sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək məqsədilə Azərbaycan təhsil məkanında ilk dəfə olaraq universitetin brendləşdirilməsini həyata keçirdik. Bununla da Azərbaycan Dövlət İqtisad Universiteti brendini dünya təhsil xidmətləri bazarında tanıtmaq iddiasındadır.

Təhsil sektorunun dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrdən biri olduğunu bildirən rektor, bir sıra ali təhsil müəssisələrinin əldə etdiyi gəlirlərin böyük dövlətlərin təhsilə ayırdığı xərclərin həcmindən çox olduğunu diqqətə çatdırıb. Dünyanın tanınmış universitetləri həmin ölkələrin iqtisadiyyatının innovativ katalizatoruna çevrilir. Təhsil sektoru həm də xidmətlər bazarının çox vacib tərkib hissəsidir. Bu sektorun ən fəal iştirakçıları universitetlərdir. Biz regional və dünya təhsil xidmətləri bazarına girərkən ciddi rəqabətlə üzləşmişik. Bu rəqabətdə tanınmaq və seçilmək üçün iştirakçılar mütləq brendləşməlidir. İnsan kapitalı hazırlamaq iddiasında olan universitetin öz nişanı olmalıdır.

Azərbaycan Dövlət İqtisad Universiteti de-fakto brendləşib. "Narxoz" və başqa adlar cəmiyyətdə universitetin mənfi obrazıdır. Deyure olaraq isə Azərbaycan Dövlət İqtisad Universiteti indi qanunvericiliyə uyğun olaraq brendləşib. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən yanvarın 21-də rəsmi qeydiyyata alınıb. Brend təsdiqlənərkən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi xüsusi təsnifatın 41-ci sinfini - tərbiyə etmə, tədris prosesinin təmin edilməsi, əyləncələr, idman və mədəni-maarif tədbirlərinin təşkili, ikinci isə 42-ci sinif - elmi və texnoloji xidmətlər və onlara aid elmi tədqiqatlar və işləmələr, sənaye analizi və elmi tədqiqatlar üzrə xidmətlər, kompüterlərin texniki və proqram təminatının işlənməsi və təkmilləşdirilməsini əsas götürüb. Universitetin brendi UNEC-dir (University of Economy). Biz bütün dillərdə UNEC kimi təmsil olunmaq istəyirik. Brend o demək deyil ki, universitetin adı dəyişdirilir. Bu, universitetin səlahiyyətində deyil və məqsədi də deyil. Brend həm də abbreviatura deyil. Azərbaycan dilində ADİU, rus dilində AQGU, ingilis dilində ASUE abbreviaturalardır.

Tədbir iştirakçıları universitetin brendləşdirilməsini yüksək qiymətləndirərək, bunun Azərbaycanda təhsilin keyfiyyətinin daha da artmasında xüsusi önəmini vurğuladılar. Sonda rektor jurnalistlərin suallarını cavablandırdı.

***"Azərbaycan"***